Şəbnəm Zakir qızı Güləliyeva [94]

# AZƏRBAYCAN ROMANLARI MİLLİ FACİƏLƏRİMİZİN TARİXİ SALNAMƏSİ KİMİ

\XX əsr Azərbaycanın milli dövlətçilik tarixində həlledici sayılan hadisələr baxımından yəqin ki, ən əhəmiyyətli bir zaman kəsiyidir. Bu hadisələrin ən yüksək zirvəsi, sözsüz ki, 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan edilməsi - azərbaycanlıların ilk milli dövlətinin – Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasıdır. Sonrakı mühüm tarixi hadisələr - 1920-ci il 28 apreldə Azərbaycanın bolşevik Rusiyası və IX Qızıl Ordu tərəfindən işğalı, AXC-nin süqutu və Azərbaycan Sovet Sosialist Respublikasının yaranması Azərbaycanın müstəqilliyinə son qoymuş, 70 il müddətində Azərbaycan dövlətçiliyinin əsas atributları qorunub saxlanılmış, 1991-ci ildə isə yeni tarixi şəraitdə Azərbaycan xalqı bir daha öz dövlət müstəqilliyini bərpa etmiş, Azərbaycan Respublikası yaradılmışdır.

Lakin bütün bu əlamətdar hadisələr Azərbaycan xalqı üçün heç də asan başa gəlməmiş, onun varlığını belə şübhə altında qoyan qanlı faciələr, saysız qurbanlar, ərazi itkiləri, soyqırımları, deportasiyalar ilə müşayiət olunmuşdur/

Müxtəlif dövrlərdə və siyasi-ictimai şərtlər daxilində yaşanan bütün bu faciələrə təkan verən əsas amillərdən biri və bəlkə də ən başlıcası, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və bu iddiaların həmin dövrün hakim dairələrinin dəstəyi sayəsində hər vasitə ilə həyata keçirilməsi olmuşdur [3].

Nəinki XX əsr, hətta əsasının XVIII əsrin oralarından etibarən qoyulduğu milli faciələrimiz təbii ki, zaman-zaman onlarla şair, dramamturq və nasirlərimizin başlıca yaradıcılıq mövzusu kimi milli ədəbiyyaımıza, onun çox müxtəlif janrlarında yol tapmışdır.

Ədəbi janrlarının zənginliyi ilə seçilən milli ədəbiyyatımızda milli faciələrimiz mövzu qaynağı kimi daha çox roman janrının inkişafına şərait yaradan amil olmuşdur. Bu isə təbii ki, milli ədəbiyyatımızda, bir yaradıcılıq vasitəsi kimi roman janrının geniş imkanlara malik olması ilə bağlı olan bir hadisə kimi dəyərləndirilir.

Məlumdur ki, epik növün ən mühüm janrlarından biri roman janrıdır. Həyat hadisələrinin geniş epik lövhələrlə əks edirildiyi bu janr rəngarəng obrazlar, çoxşaxəli və əhatəli hadisələr silsiləsinə malikdir. Roman janrının bu qədər geniş imkanlara malik olması onu epik növün digər janrlarından əsaslı surətdə fərləndirən ən başlıca cəhətidir.

"Müasir ədəbi prosesin mühüm tərkib hissəsi olan romanın janr spesifikasına konseptual münasibət getdikcə əsaslı şəkildə qərarlaşmaqdadır. İndi janrın spesifik xüsusiyyətləri və vəzifələri daha dərindən dərk olunur və o, bütünlükdə bədii ədəbiyyatın sistemində qiymətləndirilir. Romana belə bir baxışın meydana çıxmasında həm janrın özünün ənənəsinin, həm də son dövrlərdə yaranan nümunələrin mühüm rolu olmuşdur. Ona görə də bu gün müasir Azərbaycan romanının tədqiqi təkcə janrın aktuallığı ilə deyil, eyni zamanda problemin elmi-nəzəri və metodoloji prinsiplər əsasında müzakirə obyektinə çevrilməsilə diqqəti cəlb edir. Bu baxımdan son illərin romanları nəinki 70-80-ci illərin ədəbi və ictimai gerçəkliyini qiymətləndirməkdə, eləcə də poetika, janr, üslub kimi mühüm ədəbiyyatşünaslıq kateqoriyalarının müasir elmi-nəzəri tədqiqatın predmetinə çevrilməsində mühüm rol oynayır" [2, s. 255].

Azərbaycan ədəbiyyatı tarixində romanın bir janr kimi nə zaman yaranması da maraq doğuran məsələlər içərisindədir. "Bəzi mütəxəssislər isə belə hesab edirlər ki, Azərbaycan ədəbiyyat tarixində nəsr əsərləri içərisində özünəməxsus inkişaf yolu keçmiş roman janrının ilk nümunələri XII əsr Azərbaycan ədəbiyyatının müəfəkkir şairlərindən olan Əfzələddin Xaqani və Nizami Gəmcəvinin mənzum romanlarıdır" [1, s. 18].

Salidə Şərifova bu xüsusda qeyd edir: "Roman janrının konkret XX əsrə aid janr kimi müəyyənləşdirilməsi məqsədəuyğun deyildir. Milli ədəbiyyatımızda formalaşma prosesi XIX əsrin ortalarına təsadüf etmiş roman janrının əlamətlərinə folklor ədəbiyyatı ilə yanaşı, yazılı ədəbiyyatda, xüsusən də Nizami, Füzuli kimi dahi söz ustadlarının əsərlərində rast gəlinir" [5, s. 94].

Lakin, sözün əsl mənasında, bu tarixin XIX əsrdən başladığını söyləmək olar [1, s. 18].

Belə ki, Azərbaycan ədəbiyyatında roman janrının ilk nümunələri XIX əsrdə yaşamış Əbdürrəhim bəy Talıbovun "Kitab yüklü eşşək" və Cənubi Azərbaycandan olan Zeynalabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi" adlı farsca yazılmış nəsr əsərləri ilə başlayır ki, mütəxəssizlər bu əsərləri janr xüsusiyyələri etibarilə ilk roman kimi xarakterizə edirlər [4].

Dünya ədəbiyyatında və eləcə də milli ədəbiyyatımızda roman janrının başlıca növlərindən biri tarixi romanlar kimi xarakterizə edilir. Adından da göründüyü kimi bu tip romanlarda başlıca prinsip tarixilikdir. Yəni bu növ əsərlərdə keçmiş tarixi hadisə və proseslər canlandırılır. Bu mənada Azərbaycan xalqının tarixi boyu yaşamış olduğu faciələr, mahiyyət etibarilə onun tarixinin mühüm bir hissəsidir və ondan kənarda öyrənilə, araşdırıla və tədqiq edilə bilməz. Bu səbəbdəndir ki, roman yazarlarımız bu janrın təqdim etdiyi geniş imkanlardan istifadə edərək tariximizin şanlı səhifələri, kimi qanlı səhifələrini də ədəbi yaradıcılıq obyektinə çevirir, öz yaradıcı fantaziyaları və sənətkarlıq məharətləri ilə oxucularını milli tariximizlə bədii şəkildə tanış edirlər.

Bəzən əks etdirilən tarixi proseslərin gedişində həmin dövrü təmsil edən müəyyən tarixi şəxsiyyətlərin də obrazları canlandırılır. Bəzən də tam əksinə, yazıçının məqsədi hər hansı bir tarixi şəxsiyyətin obrazını, onun həyatı və fəaliyyətini bədii şəkildə əks etdirmək olur ki, bu zaman o, mövzu ilə əlaqədar olaraq dövrün tarixi proseslərini, sosial-ictimai münasibətlərini, müharibə, təbii fəlakət və hətta faciələrini canladırmalı olur. Büün bunlar bu tip

[94] Sumqayıt Dövlət Universitetinin magistri. sebnem_guleliyeva@icloud.com

romanların tarixiliyini təmin etməklə yanaşı, bədii koloritini də artırmış olur. Əsərdə tarixi məsələləri əks etdirməklə yanaşı, müasir dövrün əsas problemlərini gündəmə gətirə bilmək tarixi roman yazarından böyük ustalıq tələb edir.

Ümumiyyətlə, "dünya ədəbiyyatında klassik tarixi romanın tarixi təqribən Napalyonun işğala başlaması ilə eyni zamanda, XIX yüzilliyin əvvəllərində yaranmışdır. XIX əsrə qədər isə keçmişə müraciətə müəyyən cəhdlər olmuşdur, yalnız Valter Skottun ədəbiyyata gəlişi ilə tarixi romanın əsası qoyulmuşdur. Valter Skotta qədər tarixi romanda tarixi düşüncə kifayət qədər deyildi və insan xarakterinin xüsusiliyi öz tarixi zamanından doğurdu. "Kventin Dorvard", "Ayvenho", "Rob Roy", "Veverley" yazıçının məşhur əsərlərindəndir. Onun əsərləri dünya tarixi romançılığında ən kamil tarixi roman nümunələridir. O, əsərlərinin qəhrəmanlarını elə yaratmışdır ki, insanların geyimi, davranış tərzi, psixologiyası bütün komponentləri ilə oxucunun gözü qarşısında canlanır.

İstər-istəməz belə bir sual doğur. Niyə tarixi roman XIX əsrin əvvəllərində yarandı? 1789-ci ildə Fransa İnqilabının, inqilabi müharibənin, Napalyonun yüksəlişi və süqutunun nəticəsində xalq kütlələrində tarixə maraq oyandı. Bu zamanda kütlə görünməmiş tarixi təcrübə qazandı. İki-üç onillik (1789-1814) ərzində Avropa xalqlarının hər biri ötən yüzillikdən daha çox sarsıntı və çevriliş yaşamışdır. Tarixin həqiqətən də mövcudluğuna, onun özünün davamlı dəyişiklik prosesini təşkil etməsinə və nəhayət, bilavastə hər insanın şəxsi həyatına müdaxilə etməsinə, bu həyatı müəyyən etməsinə inam möhkəmlənmişdi" [5].

XX əsrin əvvəllərindən etibarən isə Azərbaycan ədəbiyyatında artıq roman janrının, ortaya qoymuş olduğu problemlərlə hələ də öz aktuallığını itirməyən, dünyaca məşhur bir sıra maraqlı örnəkləri yazılmışdır. Bunların sırasında Sovetlər dönəminin 1937-39-cu illərində bir çox ziyalılarımıza, xalqımızın ən qaymaqlı aydınlarına qarşı təşkil edilmiş represiyaların qurbanlarından biri olmuş Y.V.Çəmənzəminlinin "İki od arasında", "Qızlar bulağı", "Studentlər", "1917-ci il", M.S.Ordubadinin XII əsr Azərbaycanının siyasi-ictimai, həmçinin ədəbi-bədii mühitindən bəhs edən, o dövrün şair və hökmdarlarını, dövlət xadimlərini təsvir edən "Qılınc və qələm" (1946-1948) , "Dumanlı Təbriz", "Döyüşkən şəhər" (1938), "Gizli Bakı" (1940), Əbülhəsən Ələkbərzadənin "Yoxuşlar", Süleyman Rəhimovun "Şamo", "Saçlı", Mehdi Hüseynin "Səhər", Əli Vəliyevin "Qəhrəman", Qurban Səidin "Əli və Nino" kimi tarixi romanlarını XX əsr Azərbaycan ədəbiyyatında tarixi roman janrının ən layiqli nümunələri hesab edilə bilər [4], [1, s. 18].

Sovet dövrü Azərbaycan ədəbiyyatında roman janrı özünəməxsus yaradıcılıq yolu keçmiş, dövrün sərt, keşməkeşli sınaqları ilə üzləşməli olmuşdur. Məlumdur ki, sovet dövrü Azərbayvcan elmində və mədəniyyətində olduğu kimi, ədəbiyyatında da azad yaradıcılıq meyillərinin inkişafina maneə olmuş, onun daim müəyyən dar çərçivədə tutulmasına çalışılmışdır. Bu təbii ki, totalitar rejimin və siyasi senzuranın ədəbiyyata basqı uyğulaması ilə bağlı bir proses olmuşdur. Bütün yaradıcı meyillər sovetçiliyin "planına" uyğun şəkildə inkişaf etdirilməli idi. Belə bir şəraitdə tarixi roman janrı xüsusilə dövlət nəzarətindən kənar "inkişaf etdirilə" bilməzdi, o ki qaldı tarixi romanlarda milli faciələrimizin əks etdirilməsi məsələsinə.

Keçmiş sovetlər dönəmində tarixi roman yazmanın nə qədər çətin olduğunu Görkəmli yazıçımız İsmayıl Şıxlının aşağıdakı qeydlərindən də görə bilərik. O, bu xüsusda qeyd edir: "Mən "Dəli Kür" romanını yazdıqdan sonra Azərbaycanda 20-ci illərdə baş verən inqilab tariximizdən yazmaq qərarına gəldim, müəyyən materiallar topladım, hətta əsərin adını da oxuculara çatdırdım. "Qanlı təpə" adlanan bu əsər 20-ci illərin mürəkkəb və ziddiyyətli həyatını əhatə etməli idi. Lakin mövcud olan qadağalar, arxiv sənədlərinin gizlin saxlanılması, o illərdə baş verən əsl həqiqət və ziddiyyətlərin meydana çıxarılıb açıq söylənilməsinə qoyulmuş yasaqların nəticəsində tarixi dövrü olduğu kimi verməyin qeyri-mümkünlüyü məni fikrimdən daşındırdı. Gördüm ki, yazacağım əsər yazılmış əsərlərin ("Dünya qopur", "Dumanlı Təbriz", "Bir gəncin manifesti", "Səhər", "Şamo") təkrarından başqa bir şey olmayacaq. Ona görə də romanı yazmamağı qərara aldım.

Lakin son illərdə baş verən hadisələr, məhdudiyyət və qadağaların götürülməsi, baş vermiş hadisələrin qismən gerçəkliklə verilməsi imkanı məni əsər üzərində yenidən işləməyə sövq etdi və mən yeni roman üzərində işləməyi qərara aldım. Əsərin ruhu və məzmunu tamam yeni oldu, əsərin adı da dəyişdi. Mən romanımı "Ölən dünyam" adlandırdım" [6, s. 350].

Doğrudur, bu məsələdə müəyyən dövrlərdə nisbətən yumşalmalar müşahidə olundu. Belə ki, sovet dönəmi Azərbaycan ədəbiyyatında 1930-1940-cı illərlə müqayisədə 1950-1960-cı illərin, bu dövrlə müqayisədə isə 1970-1080-ci illəərin roman janrında milli məsələlərin əks etdirilməsi məsələsində yazıçılarımız daha geniş "yaradıcı mühit" əldə edə bilmişdilər. Xüsusilə sovetlərin dağılma sürəcinin başlandığı 1980-ci ilərdən sonra bu proses daha intensiv xarakter almağa başlamışdır.

Ümumiyyətlə, Azərbaycan Ədəbiyyatında Milli faciələrimizi əks etdirən romanlar içərisində Qarabağ mövzusuna həsr edilmiş tarixi romanlarımızın janr xüsusiyyəti, surətlər aləmi və əks etdirdiyi problemlər olduqca maraq doğurur. Birinci Qarabağ müharibəsinə və Vətən müharibəsinə aid məqamları ictimaiyyətə təqdim edən bu tipli romanlar ədəbi həyata təsir edərək bədii fikrin formalaşmasına və inkişafına təkan verir və bununla da milli şüura təsirsiz ötüşmür.

**Ədəbiyyat siyahısı**


1. Əhməd Sami Elaydi. Müstəqillik dövrü Azərbaycan romanı. Mövzu, problematika və sənətkarlıq məsələləri (1991-2005). Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafi ya Mərkəzi, 2017, 192 s.
2. Ənvəroğlu Himalay. Müasir Azərbaycan romanı və onun qaynaqları. Bakı: ADPU, 1994, 380 s.
3. Rüstəmova-Tohidi Solmaz. XX əsrdə ermənilərin azərbayanlılara qarşı soyqırımları. 01.08.2017
4. http://human.gov.az/az/media/meqaleler/meqale.html?artID=1
5. Şamil Sadiq. Qarabağ müharibəsi Azərbaycan romanında. 21.04. 2017.
6. https://shamilsadiq.az/qarabag-muharibəsi-azərbaycan-romaninda-2/

7. Şərifova Salidə. Çağdaş Azərbaycan posmodern romanı. Bakı: “Elm və təhsil”, 2015, 104 s.
8. Исторический роман // http://www.1143help.ru/valter-scott

**Xülasə**

Azərbaycan xalqı tarix boyu öz milli müstəqilliyini heç də asan əldə etməmiş, bu proses milli varlığını şübhə altında qoyan qanlı faciələr, saysız qurbanlar, ərazi itkiləri, soyqırımları, deportasiyalar ilə müşayiət olunmuşdur.

Müxtəlif dövrlərdə və siyasi-ictimai şərtlər daxilində yaşanan bütün bu faciələrə təkan verən əsas amillərdən biri və bəlkə də ən başlıcası, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və bu iddiaların həmin dövrün hakim dairələrinin dəstəyi sayəsində hər vasitə ilə həyata keçirilməsi olmuşdur.

Nəinki XX əsr, hətta əsasının XVIII əsrin oralarından etibarən qoyulduğu milli faciələrimiz təbii ki, zaman-zaman onlarla şair, dramamturq və nasirlərimizin başlıca yaradıcılıq mövzusu kimi milli ədəbiyyaımıza, onun çox müxtəlif janrlarında yol tapmışdır.

Ədəbi janrlarının zənginliyi ilə seçilən milli ədəbiyyatımızda milli faciələrimiz mövzu qaynağı kimi daha çox roman janrının inkişafina şərait yaradan amil olmuşdur. Bu isə təbii ki, milli ədəbiyyatımızda, bir yaradıcılıq vasitəsi kimi roman janrının geniş imkanlara malik olması ilə bağlı olan bir hadisə kimi dəyərləndirilir.
**Açar sözlər:** Ədəbi janr, roman janrı, milli ədəbiyyat, milli faciə, yaradıcılıq vasitəsi, tarixi roman.

**Азербайджанские романы, как историческая хроника наших национальных трагий**

**Резюме:**

На протяжении всей истории азербайджанский народ нелегко добился своей национальной независимости. Этот процесс сопровождался кровавыми трагедиями, бесчисленными жертвами, территориальными потерями, геноцидами и депортациями, которые поставили под сомнение его национальное существование.

Одним из главных факторов, а может быть и самым важным, который мотивировал все эти трагедии, пережитые в разные периоды и в разных политических и социальных условиях, были территориальные претензии армян к Азербайджану и реализация этих претензий всеми возможными способами благодаря поддержке правящих кругов того периода.

Не только в XX веке, но и с XVIII века наши национальные трагедии, имеющие глубокие исторические корни, естественным образом находили свое место в нашей национальной литературе, в ее многочисленных жанрах, время от времени становясь главными творческими темами. десятков наших поэтов, драматургов и прозаиков.

В нашей национальной литературе, отличающейся богатством литературных жанров, национальные трагедии явились фактором, создавшим условия для развития жанра романа как источника сюжета. Это, конечно, следует считать событием, связанным с широкими возможностями жанра романа как творческого средства в нашей национальной литературе.
**Ключевые слова:** Литературный жанр, жанр романа, национальная литература, национальная трагедия, творческие средства, исторический роман и т.д.

**Azerbaıjanı novels as a hıstorıcal chronıcle of our natıonal tragedıes**

**Summary**

Throughout history, the Azerbaijani people have not achieved their national independence easily. This process was accompanied by bloody tragedies, countless victims, territorial losses, genocides and deportations, which called into question their national existence.

One of the main factors, and perhaps the most important, that motivated all these tragedies experienced in different periods and in different political and social conditions, were the territorial claims of Armenians to Azerbaijan and the implementation of these claims by all possible means thanks to the support of the ruling circles of that period.

Not only in the 20th century, but also since the 18th century, our national tragedies, which have deep historical roots, naturally found their place in our national literature, in its numerous genres, from time to time becoming the main creative themes. dozens of our poets, playwrights and prose writers.

In our national literature, distinguished by the richness of literary genres, national tragedies were a factor that created the conditions for the development of the novel genre as a source of plot. This, of course, should be considered an event associated with the broad possibilities of the novel genre as a creative means in our national literature.
**Keywords:** Literary genre, novel genre, national literature, national tragedy, creative means, historical novel, etc.

**RƏYÇİ: dos. L.Ələkbərova**